# KİÇİK KİTABXANALAR, BÖYÜK GƏLƏCƏK:
# AİLƏDƏ OXU MƏDƏNİYYƏTİ

***Şəlalə Akif qızı Həziyeva***

*FHN Akademiyasının Ümumi kitabxanasının rəisi*
*Shalala.Haziyeva@fhn.gov.az*

***Açar sözlər:*** *ailədə oxu mədəniyyəti, oxu mühiti, Mariah Evans tədqiqatı, uşaqlar və kitab sevgisi, təhsil uğuru və mütaliə*

***Ключевые слова:*** *культура чтения в семье, среда для чтения, исследование Марии Эванс, дети и любовь к книгам, образовательные успехи и чтение*

***Keywords:*** *family reading culture, reading environment, Mariah Evans research, children and love of books, educational success, and reading*

**Xülasə:** Ailədə oxu mədəniyyəti uşağın inkişafında və gələcək uğurlarında çox mühüm rol oynayır. Valideynlər uşağın ilk müəllimi kimi onun dünyagörüşü, dil bacarıqları və sosial davranışlarının formalaşmasında həlledici təsirə malikdirlər. Erkən yaşlardan kitab oxuma vərdişinin aşılanması uşağın təhsil və peşə həyatında uğur qazanmasına böyük töhfə verir.

Ailədə oxu mühiti yaratmaq-birlikdə səsli kitab oxumaq, oxunanlar barədə danışmaq və uşağın maraqlarına uyğun kitablar seçmək-onun həm akademik, həm də emosional inkişafını dəstəkləyir, valideynlə uşaq arasında möhkəm emosional əlaqə yaradır. Kitab oxumaq uşaqlarda zəngin söz ehtiyatı, axıcı nitqin formalaşmasına kömək edir, eyni zamanda empatiya hissinin yaranmasına, özünüdərkin inkişafına müsbət təsir göstərir. Mariah Evans və həmkarlarının bir çox ölkədə apardıqları uzunmüddətli tədqiqatın nəticələri göstərir ki, evdəki kitab sayı uşağın təhsil səviyyəsinə ciddi təsir göstərir. Sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq, evdə kitabları olan uşaqlar daha yüksək akademik uğur qazanırlar.

Ailədə oxu mədəniyyətinin formalaşdırılması təkcə fərdi inkişaf üçün deyil, ümumi cəmiyyətin gələcəyi üçün də böyük əhəmiyyət daşıyır.

**Резюме**: Чтение в семье играет очень важную роль в развитии ребенка и его будущих успехах. Родители, будучи первыми учителями ребенка, оказывают решающее влияние на формирование его мировоззрения, языковых навыков и социальных поведенческих моделей. Привитие привычки читать с раннего возраста значительно способствует успеху ребенка в учебе и профессиональной жизни. Создание среды для чтения в семье -совместное чтение вслух, обсуждение прочитанного и выбор книг, соответствующих интересам ребенка – поддерживает как академическое, так и эмоциональное развитие, создавая прочную эмоциональную связь между родителями и детьми. Чтение помогает детям развивать богатый словарный запас, способствует развитию беглой речи и положительно влияет на формирование эмпатии и самоосознания. Результаты долгосрочного исследования Марии Эванс и ее коллег, проведенного в нескольких странах, показывают, что количество книг в доме серьезно влияет на уровень образования ребенка. Независимо от социально-экономического положения дети, у которых есть книги дома, достигают более высоких академических успехов. Формирование культуры чтения в семье важно не только для личного развития, но и для будущего общества в целом.

**Summary**: Reading culture in the family plays a crucial role in a child's development and future success. Parents, as the child’s first teachers, have a decisive influence on shaping the child's worldview, language skills, and social behaviors. Fostering the habit of reading books from an early age greatly contributes to the child's success in education and professional life. Creating a reading

environment in the family-reading aloud together, discussing what has been read, and selecting books that match the child's interests-supports both their academic and emotional development and creates a strong emotional bond between parent and child. Reading helps children develop a rich vocabulary, improve fluency in speech, and positively impacts the development of empathy and self-awareness.

Long-term research conducted by Mariah Evans and colleagues in several countries shows that the number of books in the home has a significant impact on a child's educational level. Regardless of socio-economic status, children with books at home achieve higher academic success. Encouraging a reading culture in the family is not only important for individual development but also for the future of society as a whole.

Müasir dövrdə bilik və informasiya əsaslı təhsil həlledici rol oynayır. Bu təhsilin təməli isə ailədə qoyulur. Uşağın ilk müəllimi olan valideynlər onun dünyagörüşünün, dil bacarıqlarının və maraqlarının formalaşmasında mühüm rol oynayırlar. Ailədə oxu mədəniyyətinin təşviqi, təkcə savadlı fərdlərin yetişdirilməsi baxımından deyil, həm də düşünən, analiz edən və ictimai həyata aktiv şəkildə qatılan vətəndaşların formalaşması baxımından böyük əhəmiyyət daşıyır.

Oxu vərdişləri nə qədər erkən yaşda inkişaf etdirilərsə, uşağın gələcək təhsil və peşə həyatında uğur qazanmaq şansı bir o qədər yüksək olur. Tədqiqatlar göstərir ki, erkən yaşlardan ailədə kitab oxuma vərdişi olan uşaqlar daha geniş söz ehtiyatına malik olur, oxuma-anlama bacarıqları inkişaf edir və məktəb mühitinə daha tez uyğunlaşırlar.

Bu fəaliyyətin həm akademik**,** həm də sosial-emosional  baxımdan saysız-hesabsız faydaları var**.** Kitab oxumaq uşaqlara yaşıdları, ailələri, cəmiyyətləri və bütün dünya ilə bağ qurmaq imkanı verir**.** Uşağın düzgün kitabı oxuması ona özünü dərk etməyə, qəbul olunmağa və eşidilməyə imkan yaradır. Məhz bu emosional bağ, uşağın ömürlük oxucuya çevrilməsi üçün təməl yaradır və bununla da empatiya qurmaq, dünyanı kəşf etmək və həyatın möcüzələrini anlamaq kimi imkanlar açılır. Valideynlər, böyük bacı-qardaşlar, nənə-babalar, müəllimlər, məktəb rəhbərləri-uşağın həyatındakı hər kəs ona oxu üzrə nümunə ola bilər. Bu, hər birimizin üzərinə düşür: uşaqlara seçim imkanı yaratmaq, özümüz oxumaq, uşağın oxuduqları ilə bağlı suallar vermək və cavablandırmaq, birgə səsli kitab oxumaq (yaşdan asılı olmayaraq). Uşaq ətrafındakı insanların oxuya dəyər verdiyini hiss etdikdə, həm evlərimizdə, həm də məktəblərimizdə daha güclü oxu mədəniyyəti formalaşacaq. Əgər illər əvvəl uşaqlara, işə başınız  qarışıb oxumağı dayandırmısınızsa, çalışın əvvəllər sevdiyiniz bir kitabı yenidən oxuyub daxilinizdəki qığılcımı alovlandırasınız. Mühüm məsələ ondan ibarətdir ki, mütaliənin dəyərli olmasına inanmalısınız. Oğlunuz və ya qızınız mütaliəni dəyərləndirdiyinizi görməlidir. Bu isə yalnız onlar sizi kitab oxuyan görsələr, baş verər. Əgər kitab oxumursunuzsa, onlar da oxumayacaqlar. Ona görə də kitabdan yapışın [5, s. 17].

Uşaqlarda kitablara sevgi, mütaliəyə maraq yaratmaq istəyiriksə, ailə oxu saatları təşkil etmək və yaşından asılı olmayaraq hər gün onlara kitab oxumaq çox vacibdir. Hər axşam birlikdə kitab oxuma adəti, uşaqla valideyn arasındakı bağı gücləndirmək üçün də fövqəladə vasitə rolunu oynayır. Kitab oxuduqları guşə isə hər axşam hekayələrin bölüşüldüyü, fikirlərin paylaşıldığı və ədəbiyyata qarşı qarşılıqlı sevginin formalaşdığı bir bağlanma məkanı olur. Bu, sadəcə oxumaq xatirinə oxumaq deyil, bu, ortaq hekayələrin onlar arasında yaratdığı sözsüz razılaşma və yaxınlıqdır.

2014-cü ildə Amerika Pediatriya Akademiyası doğulduğu andan etibarən  bütün valideynlərin uşaqlarına kitab oxumasını tövsiyə etmişdir. Araşdırmalar, kiçik yaşlardan valideynləri tərəfindən kitab oxunan uşaqların məktəbə başladıqda daha çox söz ehtiyatına və daha yaxşı riyazi bacarıqlara sahib olduqlarını sübut etmişdir. Həmçinin, oxumağa maraq göstərən valideynin uşağın oxumağı öyrənməyə olan marağını artırdığı və onu daha uğurlu bir oxucuya çevirdiyinə dair sübutlar da mövcuddur [9, s. 166-167].

Bütün valideynlər istəyir ki, övladlarında özünə inam, məsuliyyət, dürüstlük, hörmət, empatiya və mehribanlıq kimi xüsusiyyətlər olsun. Kitablardakı personajlar vasitəsi ilə bu  dəyərləri uşaqlarına

aşılaya bilərlər. Kitab oxumaq uşaqlara müxtəlif baxış bucaqlarını başa düşməkdə və cəmiyyətdə öz yerlərini tapmaqda kömək edəcək. Valideynlərin, baba-nənələrin, baxıcıların, müəllimlərin, uşaq yazıçılarının, kitabxanaçıların əsas rolu uşağa həyatını dəyişə biləcək bir kitabı tapmaqda kömək etməkdir və bununla da dünyanı dəyişmək mümkündür. Biz kiçik oxucularımıza maraqlı, əyləncəli, rəngarəng, maraqlarına uyğun kitabları əlçatan etdikdə, onların daxilindəki təbiətən olan marağı alovlandıra, eşidilmək ehtiyacına cavab verə və onların xəyal dünyasını zənginləşdirə bilərik. Hər bir uşağın birinci məktəbi ev və ən önəmli müəllimləri, valideynləri və ailəsidir. Bu baxımdan evdə uşaqlar üçün kitablarla zəngin mühit yaratmaq-onları kitablarla əhatə etmək yaşlarına, maraqlarına uyğun, müxtəlif mövzularda olan oxu nümunələri ilə tanış etmək çox əhəmiyyətli fərq yaradır.

"Kiçik kitabxanalar, böyük gələcək" prinsipi, ailədən başlayan oxu mədəniyyətinin gələcək nəsillər üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Bu səbəbdən ailədə oxu vərdişlərinin inkişaf etdirilməsi təkcə fərdi deyil, həm də ictimai məsuliyyət kimi qiymətləndirilməlidir.

1980-ci illərin sonlarından başlayaraq Nevada Universitetinin sosiologiya və resurs iqtisadiyyatı üzrə dosenti Mariah Evansın, Kaliforniya Universiteti Los-Anceles filialı və Avstraliya Milli Universitetindəki həmkarları tərəfindən uşaqların təhsil səviyyəsinə nə təsir edir mövzusunda ən geniş və əhatəli tədqiqat aparmışlar. 2010-c ildə 27 millətdən olan 73000 insan, 2014-cü ildə 42 millətdən olan 244 min insan, 2018-ci ildə isə 31 millətdən ( Amerika, Kanada, Avstraliya, Almanya, Fransa, Sinqapur və Türkiyə də daxil olmaqla) 160 min insan (25-65 yaş arası) üzərində araşdırma aparılıb. Uzun illərdir müəllimlər hesab edirdilər ki, uşaqların yüksək təhsil səviyyəsinə çatmasının ən güclü göstəricisi onların valideynlərinin savad səviyyəsidir. 20 illik tədqiqatın nəticəsi göstərdi ki, kitabsız bir evdə böyüməklə 500 kitablıq kitabxanası olan bir evdə böyümək arasındakı fərq, valideynlərin cəmi 3 illik təhsilə malik olması ilə universitet təhsili alması (15-16 illik təhsil) arasındakı fərq qədər təsir gücünə malikdir. Hər iki faktor-evdə 500 kitabın olması və ya valideynlərin universitet təhsilli olması-orta hesabla uşağın 3,2 il daha çox təhsil almasına səbəb olur. Nəticələr göstərir ki, evdə çoxlu kitab olan uşaqlar, kitab olmayan evlərdə böyüyən uşaqlara nisbətən orta hesabla 3 il daha çox təhsil alırlar. Bu təsir, valideynlərin təhsil səviyyəsindən, peşəsindən və sosial sinfindən asılı olmayaraq müşahidə olunur. Evində kitab olan valideynlər-istər varlı, istər kasıb, istər savadsız, istər ali təhsilli olsun uşaqlarının təhsil səviyyəsinin artmasına töhfə verirlər. Evansı bir sosioloq kimi daha çox o maraqlandırırdı ki, evdə kitab olması az təhsilli valideynlərin uşaqlarına necə təsir göstərir. O, xüsusilə Nevada ştatının kənd ərazilərində iqtisadi inkişaf və təhsil baxımından uşaqlara necə kömək edə biləcəklərini araşdırırdı. "O uşaqların irəliləməsi üçün hansı investisiyaları etməliyik?" – deyə o sual verir. "Bu araşdırmanın nəticələri göstərir ki, evlərinə bir neçə kitab gətirmək belə, onlara uğur qazandırmaq üçün çox ucuz, amma təsirli yoldur". Evans qeyd edir ki, "evdə az sayda kitabın olması belə – məsələn, cəmi 20 kitab – uşağın daha yüksək təhsil səviyyəsinə çatmasına əhəmiyyətli təsir göstərir. Və kitab sayı artdıqca, bu təsir daha da güclənir." "Kitabdan maksimum fayda əldə etmək mümkündür," – deyə o əlavə edir. "Bu, resursların məhdud olduğu bir zamanda çox yaxşı bir sərmayədir". Bəzi ölkələrdə, məsələn, Çində evdə 500 və ya daha çox kitabın olması uşağın təhsil səviyyəsini 6.6 il artırır. ABŞ-da isə bu təsir 2.4 ildir. Bu, 27 ölkənin ortalaması olan 3.2 ildən az olsa da, Evans qeyd edir ki, 2.4 il belə əhəmiyyətli bir fərqdir. Tədqiqatçılar evdə kitabların olmasının valideynlərin təhsil səviyyəsi, ölkənin iqtisadi inkişafı, atanın peşəsi və ya ölkənin siyasi sistemi kimi faktorlardan daha güclü təsir göstərdiyini gördükdə olduqca təəccübləniblər. Evdə kitabların olması, atanın təhsil səviyyəsindən iki dəfə daha vacibdir və uşağın Çində və ya ABŞ-da böyüməsi faktorundan daha güclü təsirə malikdir [3].

Bu tədqiqatdan əldə olunan nəticəyə görə millətindən, xalqın inkişafından, siyasi tarixindən, ideologiyasından asılı olmayaraq evlərində kitab sayı çox olan uşaqlar gələcək təhsil və iş həyatında evində az kitab olan və ya heç olmayan uşaqlardan fərqli olaraq böyük müvəffəqiyyətlər əldə ediblər. Kitabla dolu evdə böyüyən uşaqlarda güclü oxu və riyazi bacarıqlar olur. Təbiət elmlərini yaxşı qav-

rayırlar. Beynəlxalq səviyyəli məşhur imtahanlarda yüksək nəticə göstərirlər. Prestijli iş yerlərinə qəbul olmaq daha rahat olur. Beləliklə, kitabla dolu ev uşağın və cəmiyyətin gələcək müvəffəqiyyətinin açarıdır.

**Ədəbiyyat**

1. *Buq, Ceyson*. "Mənə kitab oxu!". Bakı, 2018, 228 s.
2. *Daley, Meqan*. Kitab okuyan çocuk yetişdirmek. İstanbul, 2020, 287 s.
3. *Evans, M.D.R., Kelley, J., Sikora, J., Treiman, D.J*. Family scholarly culture and educational success: Books and schooling in 27 nations // Research in Social Stratification and Mobility.– 2010.– Vol. 28, № 2.– P. 171–197.– DOI: https://doi.org/10.1016/j.rssm.2010.01.002
4. *Fox, Mem*. Reading Magic. United States of America, 2008, 192 p.
5. *Qunhus, Ceff* 2 Tənbəl oxucunu mütaliəyə həvəsləndirmək. İngilis dilindən tərcümə. Bakı, 2016, 56 s.
6. *Mackenzie, Sarah*. The read-aloud family. United States of America, 2018, 282 p.
7. *Pamela, Paul. Maria Russo*. How to raise a reader. New York, 2019, 202 p.
8. Scholastic & YouGov. (2019). Kids & Family Reading Report: Finding their story (7th ed.). Scholastic Inc. https://www.scholastic.com/content/dam/KFRR/Downloads/KFRReport_Finding%20Their%20Story.pdf
9. *Suskind, Dana*. Otuz milyon kelime. Ankara, 2015, 297 s.